Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin kollegiyasının 2012-ci il 30 iyul tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmişdir
4 nömrəli əlavə

# Malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu haqqında inzibati reqlament[19]

## 1. Ümumi müddəalar

1.1. Elektron xidmətin adı: malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu.[20]

1.2. Elektron xidmətinin məzmunu: Azərbaycan Respublikasından ixrac olunan malların mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizanın keçirilməsi və onun nəticələrini təsdiq edən sertifikatın verilməsi ilə bağlı elektron xidmət qaydalarını müəyyən edir.

1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:

~~1.3.1. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin 5-ci hissəsi;~~[21]

1.3.2. "Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli fərmanından irəli gələn məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 mart tarixli, 717 nömrəli Fərmanının 3-cü hissəsi;

*1.3.3. 2016-cı il 28 aprel tarixli, 888 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti haqqında Əsasnamə"nin 3.0.42-ci yarımbəndi;*[22]

1.3.4. "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli, 429 nömrəli Fərmanının 1-ci və 2-ci hissələri;

1.3.5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2007-ci il 29 noyabr tarixli, 190 nömrəli Qərarı ilə təsdiq edilmiş "Malın mənşə ölkəsinin təyin edilməsi Qaydası";

1.3.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli, 191 nömrəli qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nın 6.1-ci bəndi;[23]

1.3.7. İqtisadi İnkişaf Nazirliyinin kollegiyasının 2012-ci il 25 aprel tarixli, 2 nömrəli Qərarı ilə təsdiq edilmiş və Ədliyyə Nazirliyi tərəfindən 2012-ci il 8 may tarixində 15201204250002 qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmiş "Malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi Qaydaları".

1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı: Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti (bundan sonra – Dövlət Xidməti).[24]

1.5. Elektron xidmətin digər icraçıları: "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC.

1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi: qismən avtomatlaşdırılmışdır.[25]

1.7. Elektron xidmətin icra müddəti: 1 gün.[26]

1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi: Azərbaycan Respublikasından ixrac olunan malların mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. Elektron xidmətin növü: interaktiv.

2.2. Elektron xidmət üzrə ödəniş: ödənişli:

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun 30-1-ci maddəsinə əsasən malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsinə görə 20 manat məbləğində dövlət rüsumu müəyyən edilmişdir. Malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertiza xidmətləri istifadəçi ilə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC arasında bağlanan müqavilələr əsasında ödənişli yolla həyata keçirilir. Bu xidmətlərin tarifləri Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2011-ci il 24 noyabr tarixli, 09 nömrəli Qərarı ilə müəyyən edilmişdir (həmin tariflər təyin edilən göstəricilərin növü, malın çeşidi, çəkisi və digər amillərdən asılı olaraq dəyişir).

Malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsinə görə dövlət rüsumunun ödənilməsi üçün hesab:

Bank rekvizitləri: Dövlət Xəzinədarlıq Agentliyi

*Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Bakı* Vergilər Departamenti[27]

*VÖEN: 1403006271*

SWİFT: CTREAZ22

KOD: 210005

Müxbir hesab: 0132033003944

VÖEN (bank) 1401555071

Hesablaşma hesab: 2117131

Təsnifat kodu: 142219

Köçürülən dövlət rüsumunun məbləği:

Rəqəmlə 20 (AZN)

Yazı ilə iyirmi manat.

Ekspertiza xidmətlərinin göstərilməsinə görə ödəmələr üçün hesab:
Bank rekvizitləri: "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC
VÖEN: 1700752861
Azərbaycan Beynəlxalq Bankı Nəsimi filialı
KOD: 805614
VÖEN: 9900001881
Müxbir hesabı: 0137010002944
Swift BIK: İBAZAZ2X
Hesab: 33803019449384408207

Bank rekvizitləri: Dövlət Xəzinədarlıq Agentliyi (ƏDV üçün)
VÖEN: 1401555071
KOD: 210027
Müxbir hesab: 0132030004944
SWİFT: CTREAZ24
Hesablaşma hesab: 14001
Təsnifat kodu: 114110

2.3. Elektron xidmətin istifadəçiləri: fiziki və hüquqi şəxslər, dövlət orqanları.

2.4. Elektron xidmətin təqdim olunma yeri: http://economy.gov.az/e-xidmetler.

2.5. Elektron xidmət barədə məlumatlandırma: http://economy.gov.az/e-xidmetler, office@economy.gov.az, telefon: 012 493-88-67, faks: 012 492-58-95, sorğu mərkəzi: 195-2, http://www.consumer.gov.az/, office@consumer.gov.az, telefon: 012 498-15-01, faks: 012 497-24-08.

2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması: elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər aşağıdakılardır və onların skan edilmiş surəti elektron formada təqdim olunur:
2.6.1. mənşə sertifikatının alınması üçün ərizə (reqlamentə əlavə olunur);

2.6.2. istifadəçi hüquqi şəxs olduqda dövlət qeydiyyatı haqqında şəhadətnamənin və hüquqi şəxslərin dövlət reyestrindən çıxarış;

2.6.3. istifadəçi hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda fiziki şəxsin vergi uçotu haqqında şəhadətnamə;

2.6.4. istifadəçi ilə alıcı arasında bağlanmış müqavilə (olduğu halda);

2.6.5. qaimə-faktura (invoys);

2.6.6. ixrac olunan məhsulun ilkin xammalının, yarımfabrikatın yaxud məhsulların hazırlanmasında iştirak edən digər materialların alınmasını təsdiq edən müqavilə və ya başqa təsdiqedici sənədlər;

2.6.7. ixrac olunan məhsulun ilkin xammalı, yarımfabrikatı, yaxud məhsulların hazırlanmasında iştirak edən digər materialları xarici ölkə mənşəli olduğu təqdirdə, emal nəticəsində malın xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası (XİF ƏN) üzrə mövqeyində ilk dörd rəqəmdən ən azı birinin səviyyəsində dəyişmənin olması və ya advalor pay qaydası tətbiq olunduğu hallarda istifadə olunmuş materialların dəyərinin göndərilən malın qiymətinin faizlə müəyyən edilmiş həddə çatması ilə əlaqədar sənəd (kalkulyasiya);

2.6.8. dövlət rüsumunun ödənilməsi haqqında sənəd (sertifikat verilməsindən imtina edilmədikdə təqdim edilir).[28]

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.1. Elektron xidmət üçün sorğu:

3.1.1. sorğunun formalaşdırılması: ərizə forması elektron xidmətin təqdim edildiyi internet ünvanından (http://economy.gov.az/e-xidmetler) yüklənərək doldurulur və istifadəçi tərəfindən bu reqlamentin 2.6-cı bəndində tələb olunan sənədlərin surətləri ilə birlikdə təqdim edilir;

3.1.2. sorğunun qəbulu: sorğu http://economy.gov.az/e-xidmetler internet səhifəsinə daxil olduğu gün Dövlət Xidməti tərəfindən qeydiyyata alınır. Sorğunun qəbul edilməsi və sonrakı icrası ilə bağlı istifadəçiyə bildiriş göndərilir.

3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:

3.2.1. bu reqlamentin 2.6-cı bəndində göstərilən sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda sorğunun yerinə yetirilməsindən imtina olunur. Mənşə sertifikatının verilməsindən imtina edildikdə bu barədə istifadəçiyə əsaslandırılmış yazılı məlumat verilir;

3.2.2. imtina üçün əsaslar olmadıqda mənşə sertifikatının verilməsi barədə qərar qəbul edilir.

3.3. Sorğunun icrası:

3.3.1. sorğu qəbul edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli, 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun olaraq qeydiyyata alınır və icra edilməsi üçün Dövlət Xidmətinə göndərilir. Dövlət Xidmətində sorğuya və ona əlavə olunmuş sənədlərə baxılır, onlarda çatışmazlıqlar aşkar edilmədikdə malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizanın keçirilməsi üçün 1 gündən gec olmayaraq "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-yə təqdim olunur.

Sənədlər təqdim olunduğu tarixdən 1 gündən gec olmayaraq sorğuya əlavə olunmuş sənədlər və istifadəçi ilə bağlanan müqavilə əsasında "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin eksperti tərəfindən malın mənşə ölkəsinin müəyyən edilməsi qaydasına uyğun olaraq malın mənşə ölkəsi müəyyən edilir. Ekspertizanın keçirilməsi zamanı, həmçinin ixrac edilən mal partiyasının mövcudluğu, malın texnoloji prosesinin mərhələlər üzrə istehsal olunub-olunmadığı, istehsal üçün avadanlıqların və şəraitin olub-olmadığı araşdırılır. Ekspertiza nəticəsində tərtib olunan aktın bir nüsxəsi "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-də qalır, bir nüsxəsi istifadəçiyə verilir, digər nüsxəsi isə Dövlət Xidmətinə təqdim olunur. Ekspertizaların nəticələrinə əsasən Dövlət Xidməti tərəfindən istifadəçinin sorğusuna dair müvafiq qərar qəbul edilir;[29]

3.3.2. Sorğuda və ona əlavə edilən sənədlərdə aradan qaldırılması mümkün olan və imtina üçün əsas olmayan çatışmazlıqlar aşkar edildikdə bu barədə ərizəçiyə 1 gündən gec olmayaraq yazılı məlumat verilir. Onlar aradan qaldırıldıqdan və təkrar sorğu ilə müraciət edildikdən sonra onlara 1 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir;[30]

3.3.3. imtina üçün əsas olmadıqda, malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi haqqında qərar qəbul edilir. Malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi haqqında qərar qəbul edildikdən sonra istifadəçi dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədi təqdim edir. Bundan sonra sertifikat blankı rəsmiləşdirilərək istifadəçiyə birbaşa təqdim olunması və ya poçt rabitəsi vasitəsilə göndərilməsi yolu ilə verilir.

3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:

3.4.1. nəzarət forması: elektron kargüzarlıq;

3.4.2. nəzarət qaydası: Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli, 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"la müəyyən edilmiş qaydada.

3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:

3.5.1. istifadəçilər malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi barədə qəbul edilmiş qərarlardan və vəzifəli şəxslərin hərəkətlərindən inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilərlər;

3.5.2. şikayət ərizəsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır;

3.5.3. şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.

*Fiziki şəxslər üçün*

Azərbaycan Respublikası
İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi
yanında Antiinhisar Siyasəti və
İstehlakçıların Hüquqlarının
Müdafiəsi Dövlət Xidmətinə

_____________________ tarixdə _______________________________________________
(gün, ay, il) (verdiyi orqanın adı)

____________________________________________________________________ verilmiş

____________________________________________ nömrəli şəxsiyyət vəsiqəsinə malik
(seriya və nömrə)

fiziki şəxs _________________________________________________________ tərəfindən
(S.A.A.)

ƏRİZƏ

Xahiş edirəm_________________________________________________________________
(ölkə, şəhər, küçə)

__________________________________________________________ ünvanında yerləşən

______________________________________________________________________________
(mal alanın adı)

ixrac edəcəyim ____________________ miqdarda _______________________________
(kq, l, ton) (malın adı)

_____________________________________________________________________________

üçün mənşə sertifikatını təsdiq edəsiniz.

Mallar ________________________________________________ istehsal olunub.

(istehsalçı ölkənin adı)

Bununla bəyan edirəm ki, yuxarıda qeyd olunanlar doğrudur, malların mənşəyi həqiqətən də_____________________________________ aiddir və malın mənşəyi

(istehsalçı ölkənin adı)

haqqında tələblərə uyğundur.

Mallar __________________________________________________daşınacaqdır.

(nəqliyyat vasitəsinin növü)

________________ ________________

(imza) (tarix)

*(Hüquqi şəxsin blankında)*

Azərbaycan Respublikası
İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi
yanında Antiinhisar Siyasəti və
İstehlakçıların Hüquqlarının
Müdafiəsi Dövlət Xidmətinə

**ƏRİZƏ**

________________________________________________________ xahiş edir ki,

(mal göndərənin adı)

__________________________________________ müqaviləyə (kontrakta) əsasən

__________________________________________________________________

(mal alanın adı)

ixrac ediləcək _______________________________________________________

(malın miqdarı və adı)

__________________________________________________________________

__________________________________________________________________

üçün mənşə sertifikatını təsdiq edəsiniz.

Mallar _________________________________________________ istehsal olunub.

(istehsalçı ölkənin adı)

Bununla bəyan edirik ki, yuxarıda qeyd olunanlar doğrudur, malların mənşəyi həqiqətən də ____________________________________ aiddir və malın mənşəyi

(istehsalçı ölkənin adı)

haqqında tələblərə uyğundur.

Mallar ___________________________________________________ daşınacaqdır.

(nəqliyyat vasitəsinin növü)

Rəhbərin (vəzifəli şəxsin):

S.A.A.: ______________________________________________________________________

Vəzifəsi: ____________________________________________________________________

Tarix: _______________________________________________________________________

İmza: ________________________________________________________________________

M.Y.